

# Çanaqqala - 100

## *türkçülüyün zəfəri*





Bu günlərdə dünya - biri tarixi gerçəkliyə, digəri - saxtakarlığa və hədyan yalanlara söykənən iki yubiley mərasiminə şahidlik etdi. Birinci xeyrə, mərhəmətə, dostluğa və mehriban qonşuluğa çağırışla zəngin Çanaqqala zəfəri, ikinci isə başdan-başa şərin diqtəsindən yoğrulub, əbədi düşmənçiliyə, ədavətə xidmət edən qondarma "soyqırım" iftirası.





Türkiyədə düzənlənən şanlı yubileyin bütün dünya və özəlliklə də türk dünyası üçün nə qədər önəmli olduğunu bu mərasimdə möhtərəm Prezidentimiz İlham Əliyevin iştirakı bir daha təsdiq etdi...
Bu mötəbər toplantıya bütövlükdə 21 dövlət başçısı, 70-dən artıq ölkəni təmsil edən rəsmi şəxslər və beynəlxalq təşkilatların nümayəndələri qatıldı.







Çanaqqala savaşı - Birinci Dünya müharibəsi dövründə, yəni 1915 -1916-cı illərdə Osmanlı dövləti ilə Antanta dövlətləri (İngiltərə, Fransa, Anzaklar) arasında baş verən döyüş olub. İttifaq dövlətləri Osmanlı dövlətinin paytaxtı İstanbulu alaraq boğazların idarəsini ələ keçirmək, Rusiyaya etibarlı bir qida və hərbi ticarət yolu açmaq, alman müttəfiqlərindən birini zəiflətmək məqsədləri ilə ilk hədəf olaraq Çanaqqala boğazına girmişdilər.

Həmin dövrdə vaxtilə böyük ərazilərə sahib olan Osmanlı imperiyası artıq öz keçmiş qüdrətini itirmiş və çətin vəziyyətə düşmüşdü. Daxildə və xaricdə baş verən siyasi çəkişmələr dövləti çökdürür, taleyini zamanın ixtiyarına buraxırdı. Balkan yarımadasında ardıcıl məğlubiyyətlər onu böyük ərazi itkiləri ilə üz-üzə qoymuşdu. Bu ələdüşməz fürsətdən imperialist dövlətlər öz mənafeləri üçün istifadə etmək və Osmanlının torpaqlarını öz aralarında bölüşdürüb bu dövlətin varlığına son qoymaq istəyirdilər.

Martın 18-də ingilis-fransız gəmiləri şiddətli bir atəşlə hücuma başladılar. Ancaq həmlələri müvəffəqiyyətsiz olduğundan hər iki tərəf çox ağır itki verməklə geri çəkildi. Osmanlı ordusu ingilis və fransız donanmalarına qarşı Çanaqqala boğazında aylarla sürən silsilə dəniz və quru döyüşləri apardı.

Bu döyüş məhv olmaq ərəfəsində olan bir ölkənin möhtəşəm qələbəsi kimi əfsanələşib, hər vətəndaşın xatirəsində qalıb. Çanaqqala eyni zamanda, türk şəhidlərinin dünya tarixinə öz qanları ilə yazdıqları bir qəhrəmanlıq salnaməsidir. Rəsmi nümayəndələr etiraf etməsələr də, tarixçilər bunu müttəfiqlər üçün əsgəri bacarıqsızlıq və fəlakət simvolu kimi qiymətləndiriblər.

Beləliklə, düşmənin birləşmiş qüvvələri geri çəkilmək məcburiyyətində qalaraq döyüş məkanını tərk edib və 1916-cı ilin baharında böyük ümidlərlə gəldiyi bu torpaqlardan həmin ilin qışında qaçmağa başlayıb.

Bu gün bəzi dövlətlərin Türkiyəyə qarşı olan qısqanclıq və xəbislik niyyətlərinin əsas səbəblərindən biri bəlkə də Çanaqqala vuruşmasıdır. Çünki bu vuruşmada tarix boyu Türk-İslam Dünyasına qənim kəsilmiş və öz işğalçılıq planlarını hər zaman yeritməyə çalışan Avropa dövlətlərinin məqsədləri alt-üst olub, nəticədə onlar gözləniləndən qat-qat artıq itki veriblər.

Bu savaşda Osmanlı 251.309 nəfər itki vermişdi. Döyüşdə əsas canlı qüvvə və texnika ilə iştirak edən ingilislər 205.000, fran-



Çanaqqala məzarlığı - soydaşlarımızın - Azərbaycanın müxtəlif bölgələrindən olan övladlarımızın şəhidlik zirvəsinə qovuşduğuna şahidlik edir!



sızlar isə 47000 itki verdi. Ümumilikdə düşmən tərəf 300.000-ə yaxın canlı qüvvəsini itirmişdi və bundan əlavə çoxlu sayda hərbi-texniki qüvvələri məhv edilmişdi. Bir millətin gücünü ortaya çıxararaq nələr edə biləcəyini göstərmiş olan bu döyüş Türk Qurtuluş Döyüşünə də təsir etdi. Dəniz və quru qoşunlarını əhatə edən və bütün çətinliklərə baxmayaraq Türk hərb tarixinin şərəfli səhifələrindən birinə çevrilən Çanaqqala savaşı Atatürk kimi bir dahini yetişdirdi, gələcək qurtuluş savaşında onun liderliyinə əsas zəmin oldu. Qəhrəman türk milləti böyük öndər Mustafa Kamal Paşanın rəhbərliyi ilə qeyri-bərabər döyüşdə qələbə qazandı. Bu qalibiyyət savaşın taleyində əhəmiyyətli dönüş yaratdı və onu daha bir neçə il uzatdı.

## Çanaqqala döyüşləri tarixə əsrimizin ən böyük döyüşlərindən biri kimi yazıldı

Həqiqətən də, Çanaqqala savaşında babalarımızın göstərdiyi şücaət və igidliklər bu gün örnək olaraq anılmaqdadır. 100 il öncəyə nəzər salanda sanki nümunəvi qəhrəmanlıq portretinə tamaşa edirsən. Bu portretdə qadın nişançılardan, sağ əlini itirib, sol əli ilə vuruşanlardan tutmuş, 276 kq-lıq mərmini inanılmaz formada topa qoyub atəş açan və düşmən gəmisini partladan Seyid Çavuşa qədər hər kəs əks olunub. Fəxrlə demək olar ki, bu portretdəki simalar və şücaətlər Çanaqqala savaşını qeyd-şərtsiz olaraq böyük qəhrəmanlıq dastanına çevirib və bu dastan sonrakı nəsillərin və təbii ki, bizim milli ruhda, cəsurluq ruhunda tərbiyə almağımıza xidmət edib, bundan sonra da elə olacaq. Çanaqqalada Osmanlı əsgərlərinin göstərdikləri igidliklər düşmən generallarını, siyasi və dövlət xadimlərini belə heyrətə gətirib.

Türkiyə Cümhuriyyəti qurulduqdan sonra ingilis və fransız donanmalarının geri çəkilməyə məcbur edildiyi gün - 18 mart Çanaqqala Şəhidlərini Anma Günü kimi elan olunub!

Üstündən yüz illik bir zaman keçməsinə baxmayaraq insanlar Çanaqqala adını eşidəndə qəhrəman Türk millətinin əzmkarlığına heyran olur və bu şərəfli mücadilə hər bir kəsi düşündürməklə yanaşı, onlarda əsl vətənpərvərlik ruhu aşılayır.

Azərbaycanda Çanaqqala hadisələri tam da olmasa, kifayət qədər tədqiq edilib. Hətta bu döyüşlərə ithaf edilən əsərlər də yazılıb. Bunlardan biri görkəmli bəstəkarımız Vasif Adıgözəlovun "Çanaqqala - 1915" oratoriyasıdır. Bu əsər öz ruhuna görə insana döyüş əzmi aşılayır.

**XX əsrin ən böyük siyasətçilərindən Çörçil:**

"Türklər Çanaqqalada ən müasir silahlı silahlanmış güclər qarşısında bir qala kimi dayanmışdılar"

**İngilis generalı Oqlander:**

"Türk əsgərlərinin döyüşdə göstərdikləri igidliklərin nəzərə alınmaması ingilislər üçün fəlakət oldu"

**General Tavshend:**

"Avropada elə bir əsgər yoxdur ki, türklərlə müqayisə edilə bilsin. Misal üçün, Gelibolunu göstərmək istəyirəm. Orada bizim gəmilərdən açdığımız atəş nəticəsində səngərlər yerlə-yeksan oldu. Türklər deyil, başqa millətdən olan əsgərlər olsaydılar, buna dözməyərək səngərləri tərk edərdilər. Amma türk əsgərləri sona kimi bu cəhənnəmdəki mövqelərini tərk etmədilər"



Çanaqqala döyüşləri müharibələr tarixinə özünün misilsiz adını yazdı. Bu savaşlar nəticəsində türklər dünyaya öz döyüş əzmlərini sübut etdilər. Min illik döyüş təcrübəsi olan böyük türk millətinin Birinci Cahan müharibəsindəki zəfəri bu ulusun yenilməzliyini bir daha təsdiqləmiş oldu...